Respublika.- 2019.- 27 noyabr.- S.7.

# LƏNKƏRANDA III ÇAY, ÇƏLTİK VƏ SİTRUS FESTİVALI



Lənkəran Şəhər İcra Hakimiyyətinin və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə rayon sakinləri, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ərazi-təşkilat məsələləri şöbəsinin beşinci sektor müdiri Dəyanət Abdullayev, Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadi Rəcəbli, Milli Məclisin üzvlərindən Hüseynbala Mirələmov, Rüfət Quliyev, Mədəniyyət nazirinin müavini Rafiq Bayramov, Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Tofiq Rzayev, xarici ölkələrin respublikamızdakı diplomatik korpusunun nümayəndələri, elm, mədəniyyət xadimləri, yerli və xarici turistlər iştirak edirdilər.

Tədbir iştirakçıları əvvəl ümummilli lider Heydər Əliyevin əzəmətli abidəsini ziyarət edərək abidənin önünə gül dəstələri düzdülər.

Festival xatirə parkının giriş hissəsində qurulmuş rəmzi qala darvazasının qarşısından start götürdü. Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov festivalı açaraq qonaqlara və iştirakçılara isti, hərarətli salamlarını çatdırdı. Rayon əməkçilərinin aqrar sahədə qazandığı uğurlardan söhbət açdı, lənkəranlıların bayram mərasiminə böyük coşqu, yüksək nailiyyətlərlə gəldiyini qeyd etdi.

Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri, siyasi elmlər doktoru, professor Hadi Rəcəbli lənkəranlıları bayram münasibətilə təbrik edərək hamıya səmimi, xoş arzularını söylədi. Sonra məktəblilər qonaqları müxtəlif dillərdə salamladılar.

Azərbaycanın dövlət atributları və subtropiklər diyarının simvolunu əks etdirən plakat və fotostendlərlə bəzədilmiş parkda "Çayımızın dadı var", "Süfrələrin bəzəyi—Lənkəranın düyüsü", "Sitrus bağlarının möcüzəsi", "Gözəlliyi damla-damla topladıq", "Qonaq evin ruzi-bərəkətini artırar", "Lənkəranın şirnisi-ağız dadımız", "Cənnət görmək istəyən Lənkərana gəlsin" və digər pavilyonlarda, vitrinlərdə yerli fermerlərin yetişdirdiyi yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsulları, ictimai iaşə və turizm obyektlərinin hazırladıqları ərzaq, sənaye malları, el sənətkarlığı nümunələri, rayonda fəaliyyət göstərən təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin, digər idarə və təşkilatların qazandıqları uğurları əks etdirən eksponatlar nümayiş etdirildi.

Festival iştirakçılarına, həmçinin ekoloji cəhətdən təmiz, növbənöv Lənkəran çaylarından dəmlənmiş samovar çayı, yerli şirniyyat ustalarının hazırladıqları şirniyyatlar, rayonun bacarıqlı və təcrübəli aşpazlarının "Haşimi", "Sədri", "Appolla", "Çampo" kimi yerli düyü sortlarından bişirdikləri 50 növdən çox plov, eyni zamanda Lənkəran mətbəxinin məşhur ləvəngisi, növbənöv dadlı-tamlı xörəklər, müxtəlif çeşidli kabablar təqdim olundu. Qonaqlar rayonda istehsal olunan pürrəngi çayın, limonun, naringinin, portağalın, Lənkəran düyüsündən hazırlanmış müxtəlif təamların, digər yeməklərin dadına baxdılar.

Rayon ağsaqqallar şurasının sədr müavini Sərhad Məmmədov hələ keçən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə Lənkəranda, sonralar respublikamızın digər rayonlarında məhsul bayramlarının keçirildiyini, ənənələrin bu gün də davam etdirildiyini fərəhlə bildirdi.

Digər müsahibimiz—Çexiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Milan Ekert Lənkəranda ikinci dəfə olduğunu, belə möhtəşəm festivaldan məmnun qaldığını söylədi.

Bayram tədbirini rayonun bədii özfəaliyyət kollektivləri, gənclər və idmançılar, musiqi məktəblərinin şagirdləri, uşaq bağçalarının balaca fidanları ədəbi-bədii kompozisiyalar, mahnı və rəqslər, intellektual-əyləncəli proqramlarla daha da rövnəqləndirdilər.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

